# YAZARLAR

**(aylıq ədəbi-bədii, elmi jurnal)**

**Aprel 2021 (04)**

(2021-ci ildən çıxır)

**Təsisçi və baş redaktor:** Zaur Ustac.
**Texniki redaktor:** Tuncay Şəhrili.
**Məsul katib:** Araz Şəhrili.

**Fəxri redaksiya heyəti:** Abbasqulu ağa Bakıxanov, Mirzə Fətəli Axundov, Lev Tolstoy, Əhməd bəy Ağaoğlu, Əbdürrəhim bəy Haqverdiyev, Cek London, Əliqulu Qəmküsar, Vintsas Kreve, Üzeyir Hacıbəyov, Pənahi Makulu, Səməd Vurğun, Şəhriyar, Bayram Bayramov, Hüseyn Arif, Bəxtiyar Vahabzadə, Cabir Novruz, İldırım Əkbəroğlu (Füzuli), Alı Mustafayev, Mustafa Müseyiboğlu, Ülvi Bünyadzadə.

**Redaksiya heyəti:** Ayətxan Ziyad (İsgəndərov), Aydın Xan Əbilov, Vüqar Əhməd, İradə Aytel, Qılman İman, Təranə Məmməd, İbrahim Rüstəmli, Pərvanə Bayramqızı, Kamal Camalov, Adilə Nəzər, Taleh Xəlilov, Aysel Nazim, Təvəkkül Goruslu, Əsmər Hüseyn Xan, Rahim Üçoğlanlı, Ülkər Nicatlı, Şahnaz Şahin, Əjdər Əlizadə, Təranə Arifqızı, Mayıl Dostu, Gülşən Mustafa, Mövlud Ağamməd, Nərgiz Mirzəyeva (Azərbaycan), Leyla Oruc, Faruk Habiboğlu, Yaşar Özmen, Gülsen Aksoy (Türkiyə), Rafiq Hümmət (Gürcüstan).

# BU SAYIMIZDA

Baş redaktorun guşəsi ..............................................................3
Ayətxan Ziyad (İsgəndərov). II Qarabağ Müharibəsinin salnaməsini yazanlar..............................................................4
Taleh Xəlilov. Gənc tədqiqatçının ilk əsəri..............................15
Təranə Məmməd. Qaranlıqdan işığa........................................18
Mehmet Faruk Habiboğlu. Dağlar..........................................27
Leyla Koçak Oruç. Coşma.....................................................28
Lalə İsmayıl. Daş imiş.............................................................32
Zaur Ustac. Məşəqqət..............................................................35



**Zaur USTAC**

## BAŞ REDAKTORUN GUŞƏSİ

Salam olsun, çox dəyərli oxucum! Şükürlər olsun, Böyük Allaha! Sizlərlə hər yeni görüş həyat-yaşam nişanəsi, inkişaf və tərəqqiyə doğru atılan daha yeni bir addım sayılır bizim üçün. Jurnalımızın dördüncü sayında xoş gördük sizləri! Saydan-saya təkmilləşməyə, müəyyən çatışmazlıqları aradan qaldırmağa çalışırıq. Bu məsələdə Siz də öz rəy və təkliflərinizi bildirməklə bizə yardımçı ola bilərsiniz.

Bu sayımızda da ümumi amalımıza xidmət edən yazılarla görüşünüzə gəlmişik. Ayətxan Ziyadın 44 günlük Zəfər savaşı zamanı Füzulidən Şuşaya qədər şərəfli döyüş yolu keçmiş qəhrəmanının həyatından bəhs edən yazısı, Taleh Xəlilovun gənc yazarın ilk kitabı haqqında qeydləri, Təranə Məmmədin ibrətamiz hekayəsi, Faruk bəyin "Dağlar"ı, Leyla Orucun şeirləri və Lalə İsmayılın poeziya dünyasına səyahət sizləri gözləyir.

"Yazarlar"ın söz dünyasına xoş gəlmisiniz!





**Ayətxan ZİYAD (İsgəndərov)**

## II QARABAĞ MÜHARİBƏSİNİN SALNAMƏSİNİ YAZANLAR:
## Qarabağ qazisi Kərbəlayi Fail İsgəndərov

**Tarixin yaddaşından**

Son bir qərinə üçün Azərbaycanın öz torpaqları uğrunda mücadilə tarixini iki qanlı dövrə bölmək olar:
Birinci Qarabağ Müharibəsi (20 fevral 1988 - 12 may 1994-cü il) və İkinci Qarabağ Müharibəsi (27 sentyabr - 10 noyabr 2020-ci il).

**Birinci Qarabağ Müharibəsinin nəticələri**

Atəşkəs əldə olunması ilə qan tökülməsinin durdurulması (may 1994 - 27 sentyabr 2020-ci il).
Münaqişənin sülh yolu ilə həlli məqsədilə ATƏT-in prinsipləri əsasında Minsk qrupunun yaradılması. Uzun illər ərzində Azərbaycan tərəfinin səbr və təmkin göstərərək danışıqlar aparması. Məsələnin sülh yolu ilə qansız həllinə çalışmaq cəhdi.

**İkinci Qarabağ Müharibəsinin nəticələri**

XXI əsrin ilk iki onilliyiAzərbaycan üçünyaddaqalandır. Mütəxəssislər tərəfindən sınaq döyüşləri kimi qiymətləndirilən aprel döyüşləri (1-5 aprel 2016-cı il) və 2020-ci ilin44 günlük Zəfər döyüşü (27 sentyabr – 10 noyabr 2020 – ci il).

Qürurla qeyd etməliyik ki, 28 il çözülməsi mümkünsüz olan problem Azərbaycan Prezidenti İlham Əliyevin qətiyyəti, silahlı qüvvələrimizin cəsarətli döyüş əzmi sayəsində 44 günə həllini tapmış oldu.

***

**İkinci Qarabağ Müharibəsinin salnaməsini yazanlardan biri**:
**İsgəndərov Fail Rəfayıl oğlu**
1994-cü ildə Hacıqabul şəhərində anadan olub. 2011-ci ildə Hacıqabul şəhər 2 saylı orta məktəbin bitirib. 2012-2016-cı illərdə Şirvan şəhər Humanitar kollecində təhsil alıb. 2016-2018-ci illərdə hərbi xidmətdə olub. 2018-ci ilin sentyabrından ailəlidir. Zeynəb adında 2019-cu il (16.06.2019) təvəllüdlü bir övladı var. Bir neçə dəfə Məşhəd, Kərbəla ziyarətində olub. “Qarabağ qazisi Kərbəlayi Fail” adı ilə tanınır...

2020-ci il iyulun 14-də Tovuz rayonu ərazisində gedən şiddətli döyüşlər zamanı general-mayor Polad Həşimovun şəhid olmasından ciddi təsirlənən Fail Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Hacıqabul rayon şöbəsinə müraciət edib. Müraciəti ilə əlaqədar Ali Baş Komandan İlham Əliyevin qismən

səfərbərlik haqqında sərəncamından sonra yuxarıda adı çəkilən qurum tərəfindən səfərbərliyə alınaraq cəbhəyə göndərilib.
Əvvəlcə artilleriya bölməsində kəşfiyyatçı kimi təlimlərə qatılsa da, döyüşlərin başlandığı elə ilk günlərdəcə öz xahişi ilə minaatan batareyasından ayrılaraq piyada bölüyünə qoşulub.

**F.İsgəndərovun döyüş yolu haqqında qısa xronoloji anlatma**



**1.** Sentyabrın 27-də müharibə başlayanda Füzuli şəhərindən hücum əmri alıb Alıxanlıya kimi gediblər;
**2.** Oktyabrın 10-da Alıxanlı kəndi istiqamətində gedən döyüşlərdə düşmən tərəfindən atılmış minaatan mərmilərindən biri Cəlilabaddan olan Əkbərov İbarət Faiq oğlunun üstünə düşüb. İ.Əkbərov şəhid olub, Fail və başqa bir döyüşçü ağır yaralanıblar (həmin döyüşçünün adını xatırlaya bilmir).
Fail sol çiynindən və burnundan ciddi qəlpə yarası alıb: "Düşmən minaatanlardan mərmini dolu kimi yağdırırdı. Pis vəziyyətə düşmüşdük. Ayağımızın altına, yan-yörəmizə minaatan mərmiləri düşür, snayperlə yağan güllə yağışı göz açmağa imkan vermirdi. Kömək gələnə qədər o cür güclü hücuma necə tab gətirdiyimizi

təsəvvür edirsinizmi? Bu vaxta qədər belə şeyləri ancaq Böyük Vətən Müharibəsindən bəhs edən filmlərdə görmüşdüm...
Burunla gicgah arasında nə qədər məsafə var? Ölüm gözlə qaş arasında olub. “Allah qoruyub” bunun kimi hallar üçün deyilib. Bunabənzər hallarla isə hər gün-hər saat göz-gözə idik...
Əvvəl-əvvəl elə bildim qəlpə burnumu tamam aparıb, burnum daha yoxdur. Ancaq sən demə qəlpə bir tərəfdən girib o biri tərəfdən çıxıbmış. Burunda nə qədər qan olarmış! Hospitalda da qanı kəsməkdə çətinlik çəkirdilər”.
Sutka yarım Füzulidə hospitalda, doqquz gün Zərdab rayon xəstəxanasında, qısa bir müddət də alayın tibb məntəqəsində müalicə alandan sonra yenidən döyüş əməliyyatlarına qoşulub.
“Çiyindəki yaramın vəziyyəti yaxşıdır. Burnumdakı yaranın fəsadları isə bu gün də qalıb. Qəlpənin yeri zaman-zaman şişməkdə davam edir. Bu fəsad səsimdə də dəyişiklik əmələ gətirib. Əvvəlki ilə müqayisədə səsim boğulmuş vəziyyətdə çıxır, elə bil yolunu nə isə tutub”.
Atasının səhhətində narahatlıq olduğundan, günaşırı, iki gündənbir ailə ilə telefon əlaqəsi saxlayırmış. Əlaqənin qəflətən 10 gündən artıq müddətə kəsilməsi valideynlərində əndişə yaratsa da, digər ailə üzvləri onları inandırmağa çalışıb ki, komandiri ilə maraqlanıblar, heç bir narahatlıq yoxdur, sadəcə telefon rabitəsi mümkün deyil.
**3.** Müalicədən sonra da Füzulinin və kəndlərinin düşməndən azad olunmasında və müdafiəsində iştirak edib.
**4.** Sonra üç gün Qubadlının müdafiəsində olublar;
**5.** Zərurət üzündən müəyyən taktiki əməliyyatların icrası məqsədilə bölük yenidən Hadruta üz tutub, bir gün şəhərin yaxınlığındakı yüksəkliyin müdafiəsində olub;

**6.** Briqada Tuğda cəmləşdiriləndən sonra tabor min zülmlə Topxana meşəsinə qədər hərbi yürüş edib;
**7.** Daha ağır döyüşlərdən biri Daşaltı istiqamətində olub: "Noyabrın ilk günləri idi. Minamyot atəşləri, iri çaplı silahlardan atılan güllə yağışı altında Topxana meşəsindən Daşaltı kəndinə irəlilədik. Burada çox ölüm oldu, çox yaralanan oldu";
**8.** Noyabrın 8-də Şuşa şəhərinə giriblər: "*Noyabın 9-u da daxil olmaqla gecə saat 3-4-ə kimi ermənilər səhəri atəşə tuturdular. Atəş səslərindən qulaq tutulurdu. Noyabrın 10-na keçən gecə Atəşkəs imzalansa da, təqribən bir saat sonra və dəfələrlə atışma yenidən qızışdı. Şuşanın onlardan alınmasilə ermənilər heç cür barışa bilmirdilər*";
**9.** Şuşa alınandan sonra Failgilin bölüyü Şuşaətrafı kəndləri düşməndən təmizləyə-təmizləyə Xankəndiyə istiqamət götürüb. Son olaraq bölük musiqi məktəbinin binasında yerləşib.

"*Xankəndi yaxınlığında "erməni xaçı" deyilən bir təpə var. Ermənilər iri bir təpə üzərində dəmirdən xaç vurmuşdular, ona görə belə deyilirdi*".

Həmin gündən ordudan tərxis olunana qədər - dekabrın 15-dək adı çəkilən ərazinin düşməndən qorunmasında fəallıq göstərib.

Deyir, "*bizim gücümüz də, qüvvətimiz də var idi ki axıra qədər gedək. İkicə saat vaxt lazım idi, Xankəndini götürəcəkdik. Bəzən eşidirəm deyirlər ki, ermənilər özləri təslim olublar. Bu heç də belə deyil, erməni məcbur olub təslim olub. Düşmən yaxşı bilirdi ki, Azərbaycan ordusu ondan qat-qat güclüdür. Təslim olmasaydılar,*

*hamısı qırılacaqdı... Ordudan tərxis olunana qədər həmin ərazinin müdafiəsində iştirak etmişəm*”.

Qaziliyi ilə ailəsinə, elinə-obasına başucalığı gətirən F.İsgəndərov üçün 44 günlük Zəfər döyüşü 86 günə tamamlanıb. Müharibədə göstərdiyi qəhrəmanlıq nümunəsi döyüşçünün hərbi biletində də əksini tapır. Belə ki, F.İsgəndərovun hərbi biletində yazılıb ki, Füzuli və Şuşa istiqamətində gedən döyüş əməliyyatlarında iştirak etmişdir.

Döyüş qabiliyyəti Füzulinin və Qubadlının alınmasına görə medalları ilə dəyərləndirilib.




Cəbhədən döndüyü ilk günlər Faillə çox görüşlərimiz olub. Yaddaş pərakəndəliyi hiss olunurdu. Söhbətdən yayınmağa çalışır, danışılanlara aludə olurdusa da, bir an sonra bəhs etdiyi hadisə ilə əlaqədar sual verəndə duruxur, dəqiqləşdirmə aparmaqda şətinlik çəkirdi.

Döyüşçü yoldaşlarının, tanışlarının onu tez-tez ziyarət etmələri, cəbhə yoldaşları ilə telefon danışıqları və yazışmaları zaman-zaman yaddaşının bərpasına yardımçı oldu. “MTV Azərbaycan” kanalının “10-da görüşək” proqramında söhbətlərinin lazımi mizan-tərəzidə olduğunu görəndə telefon açdım ki, səninlə ilk görüşlərimiz zamanı

özün bilərəkdən danışmaq istəmirdin, yoxsa... "Elə demə, əmi, o zaman həqiqətən olanları xatırlamaqda çətinlik çəkirdim. Baxmayaraq ki indi yavaş-yavaş aydınlaşır, amma hələ də yaddaşım tamam bərpa olunmayıb", - dedi.

Verilişin aparıcısının aşağıdakı düşüncələrinə diqqət yetirək: "Döyüşçü yoldaşlarına daim yüksək əhval-ruhiyyə bəxş edən bu qəhrəmanlar *(verilişə F.İsgəndərovla eyni taborda döyüşmüş hacıqabullu* **Nurlan Şükürov** *da dəvətli idi*) bu gün olduqca məmnundurlar. Aldıqları yaralar, bədənlərindəki qəlpələr onların bugünkü məmnunluqlarına mane olmur. Əksinə, başlarına gələnlərdən bir şey olmamış kimi söhbət açır, erməniyə acıq verirmiş kimi təbəssümlə, məmnunluqla bəhs edirlər".

*"II Qarabağ Müharibəsi əsl müharibənin nə və necə olduğunu bizlərə başa saldı. Dərk etdik ki, filmlərdə gördüklərimiz həqiqətən kinodur. Müharibə tamam özgə bir nəsnədir. Sözün müstəqim mənasında "müharibə" döyüşçü üçün bir yandan əgər düşmənə nifrət və intiqam kəlmələri ilə qoşalaşırsa, digər tərəfdən həm də hər an ölümü qarşılamaq, müəyyən taktiki döyüş əməliyyatları zamanı bu kimi hallarla üzləşməmək üçün ayıq-sayıq olmaq, qarlı-şaxtalı, sazaqlı, soyuq cəbhə həyatı deməkdir,* - deyir Fail, - *Döyüşdə olduğum müddət ərzində bu dediklərimlə hər gün, hər saat üz-üzə, göz-gözə idik. Bildiyiniz kimi, Füzuli, Daşaltı, adı dünya döyüş salnaməsinə düşmüş Şuşa döyüşləri ən qanlı döyüşlər sırasındadır. Rembodan bəhs edən döyüş filmləri bunun yanında heç nədir. Mərmi başımıza yağış kimi yağırdı. Biz də ki... Elə bil ki, minaatan mərmilərinə qucaq açırdıq. Güllələr yan-yörəmzə, ayağımızın altına tökülür, biz isə olanlara məhəl qoymadan, zərrə qədər də qorxu hiss*

*etmədən verilən əmrin yerinə yetirilməsi üçün irəli şığıyırdıq. Hamıda ifadəsi mümkün olmayan İlahi bir qüvvət var idi. Elə bir ruh yüksəkliyi ki... Bu hisslərin sözlə ifadəsi mümkün deyil.*
*"Xankəndinin başlanğıcında Xaçaltı deyilən bir yer var, ermənilərlə 30 metr məsafədəydik. Orada mən Azan vermişəm. "Allahü-Əkbər" sədaları dağlara-daşlara yayılanda... Bu ermənilərə qıcıq verirdi, əsəbiləşirdilər, amma qorxularından cınqırlarını çıxara bimirdilər. Özlərində buna cəsarət tapa bilmirdilər.*

**"Ölümdən qorxmurdunuz?" sualıma cavabından:**
*"II Qarabağ müharibəsində mənim ən güclü silahım 28 il "azan" səsinə həsrət qalmış Qarabağın şəhər və kəndlərində, adsız yüksəkliklərində səsləndirdiyim "Allahü-əkbər" sədaları olub. Ayağım dəyən elə bir yaşayış məntəqəsi, dağ-dərə, orman olmayıb ki, orada mənim səsimdə azan səslənməsin.*
*Başına yağış kimi yağan güllədən kim qorxmaz ki... Ölümdən hamı qorxur. Amma bu hissi içindən qovmağın yolları var. Hücum başlayanda öz-özümə tez-tez təkrarlayırdım ki, "mən heş nədən qorxmuram". Bunu döyüşçü yoldaşlarıma da təlqin etmişdm. Düzü, onlar həmişə mənim ehkamlarıma ehtiramla yanaşıblar. Bu, bəlkə də dinə, Allaha sıx bağlılığımla əlaqədardır, deyə bilmərəm. Kəlmeyi-şəhadət öyrətdiyim uşaqlar da olub. Baxırdılar ki, mən kəlmeyi-şəhadətimi oxuyub döyüşə girirəm. Və Allahı çağırıb döyüşə girəndə mənə heç nə olmur, onlar mənə necə inanmaya bilərdilər.*
*Düşməndən intiqam almaq hissi ruhumuzu oda-alova döndərmişdi. Düşüncəmizə bir duyğu hakim kəsilmişdi: torpaqlarımızı düşməndən xilas etmək! Vətən müharibəsində şəhid olanların qisasını almaq! Öhdəmizə düşən işi ləyaqətlə yerinə yetirmək! Gələcək nəsillər deməsin ki, öhdələrinə düşən vəzifəni yerinə yetirə bilmədilər, öz*

*babaları kimi onlar da olanları bizim üçün qoyub getdilər. Qürur duyuram ki, borcumuz olanı, öhdəmizə düşəni layiqincə, şərəf və ləyaqətlə yerinə yetirə bilmişik. Bu kimi hisslərlə yaşayan insan da ölüm haqda düşünərmi? Odu, ölümdən qorxmaq kimi hisslər düşüncəmizə yaxın düşə bilmirdi. Bir də, düşünürdüm ki, olsa-olsa şəhid ola bilərəm, bu da ki, döyüşçü üçün ən yüksək zirvədir. Məncə, bu duyğu hamının rununa hakim idi".*

Ölümlə göz-gözə durduqları az olmayıb. Ancaq dediyi kimi, onları Allah saxlayıb: "*Bir hadisə danışım. Neçə gün idi ki, yeməyimiz, suyumuz qurtarmışdı. Aclığa dözmək mümkündür, susuzluq çətindir. Döyüş də göz açmağa macal vermirdi. Azacıq başını qaldırsaydın, hədəfdə idin. Bunu hamımız yaxşı bilirdik. Az aralıda erməniləri qovub çıxartdığılmız yer var idi, uşaqlardan ikisinə dedim ki, əyninizi soyunun, hiss edib bizi hədəfə götürə bilməsinlər. Adama bir-iki kisə də götürüb səngərin içi ilə var gücümüzlə bəllədiyim yerə yüyürdük. Mineral sular, konserv, çörək... yan-yörə ərzaqla dolu idi. Kisənin birini mineral sularla doldurub kürəyimə almaq istədim. Kisə ağır, mən də zəif adam. Uşaqlara dedim ki, köməkləşib qaldırın kürəyimə. Qaldırdılar. Səngərlə qaça-qaça suyu gətirib döyüşçü yoldaşlara çatdırdım... Belə günlərimiz az olmayıb...*

Başqa bir hadisəni xatırlayır: *"Məktəb binası bildiyim üstü panellə örtülü, sığınacaq üçün yaxşı bir yer var idi. Mərmidən daldalanmaq üçün ora üz tutduq. Axırıncı adam "sığınacağa" girəndə gəldiyimiz yolu vurdular. Dörd mərmi düşdü. Üç-dörd dəqiqə geciksəydik, hamımız qırılacadıq".*

Cəbhədə olduğu günlərdə oxuduğu mahnılar döyüşçü yoldaşları tərəfindən mobil telefona yazılıb müxtəlif sayt və kanallarda yayımlanırdı.
Deyir ki, qarabağlı sənət adamlarının bu torpaq haqqında söylədiklərində haqq varmış. Havada qəribə oksigen var. Zilə qalxdıqca səs açılır, oxuduqca yorulmaq bimirsən. Özüm də məəttəl qalırdım, inana bilmirdim ki, o soyuğun, şaxtanın qabağında (*mən soyuqdan qorxan adamam*) bu səs hardan gəlir. Elə xırdalıqlar edirsən ki... Aran bölgəsində bu, mümkün deyil".

***

...Qarabağ qazisi Kərbəlayi Faildən döyüş yolu haqqında qəlpə-qəlpə öyrənə bildiklərimiz hələlik ancaq bu. Zaman keçsin, II Qarabağ Müharibəsinin salnaməsini yazan Fail və döyüşçü yoldaşlarının Zəfər yolu haqqında daha ətraflı bəhs etmək borcumuz olsun.

***

...28 il töhmət dolu ömür yaşayan Azərbaycan insanı, nəhayət ki, başda Ali Baş Komandan İlham Əliyev olmaqla özünü toparlayıb Vətən torpaqlarının bütövlüyünü bərpa etdi.
Yalnız 28 illik ömürmü?
Heç də yox. Azərbaycan xalqı bu qələbə əzmi ilə 207 illik (*12 oktyabr 1813-cü il, Gülüstan sülh müqaviləsini xatırlayaq*) ilhaqa son qoyub. Qələm sahibləri bu iradənin nəticəsini "Dəmir Yumruq" adı ilə əbədiləşdirdilər, bəstəkarlar "Dəmir Yumruq" sahibinin şəninə nəğmə qoşdular.

O anlatdı Yer üzünə
Məğlub nədi, zəfər nədi.
O adı bir yumruq deyil,
Nağıldakı əfsanədi.

...Haqqı nahaq etmişdilər.
O qaldırdı haqq səsini.
Onun polad iradəsi
Titrətdi Yer kürəsini

yazdı Zahid Xəlil.

II Qarabağ Müharibəsində qazanılan qələbə Azərbaycan insanının sarsılmaz milli birliyinin təntənəsi, 10 noyabr 2020-ci il təqvim tarixi Azərbaycanın erməni faşizmi üzərində tarixi qələbəsi, xalqımızın həyatında Yeni Tarixin başlandığının göstəricisidir.



**Taleh XƏLİLOV**

## GƏNC TƏDQİQATÇININ İLK ƏSƏRİ

Özünəməxsus sənət yolu keçmiş Hüseyn Cavid əsərlərində daim həyati problemləri, insan talelərini, milli və bəşəri məsələləri əks etdirmişdir. O, əsərlərində xalqa və vətənə olan sədaqət hisslərini ifadə etmişdir. Cavid ziddiyyətli bir zamanda daha çox Şərq tarixinə müraciət etmiş və yeni milli obrazlar yaratmışdır.

Maarifpərvər ziyalı hər zaman yaradıcılığında milli, tarixi, pedaqoji və siyasi dəyərləri sistemli şəkildə əks etdirmişdir. Mütəfəkkirin həyat və yaradıcılığının hələ sağlığından öyrənilməsinə baxmayaraq, onun məfkurəsi, ictimai-siyasi və pedaqoji ideyaları günümüz üçün aktuallığını itirməmişdir. Onun yaradıcılığının milli müstəqillik kontekstində daim araşdırılmasına və yeni-yeni tədqiqat əsərlərinin yazılmasına ehtiyac yaranmışdır. Bu baxımdan Naxçıvan Dövlət Universitetinin doktorantı Oğuzhan Uzarın türk dilində yazdığı "Hüseyn Cavidin türkçülük, turançılıq və siyasi-hüquqi baxışları" adlı monoqrafiyası da çox aktualdır.

Oğuzhan Uzar "Hüseyn Cavidin türkçülük, turançılıq və siyasi-hüquqi baxışları" adlı monoqrafiyasında mündəricat üzrə nəzərdə

tutulmuş türkçülük, turançılıq, siyasət və hüquq anlayışlarını, onların mahiyyətini, məzmununu və prinsiplərini metodiki baxımdan düzgün təhlil etmişdir.

Elmi redaktoru hüquq üzrə fəlsəfə doktoru, dosent Qəhrəman Behbudov, rəyçiləri isə fəlsəfə üzrə elmlər doktoru, professor Qərib Allahverdiyev və fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Abbas Əhmədov olan monoqrafiya Naxçıvan şəhərində "Əcəmi" nəşriyyatında çap olunmuşdur.

Giriş, iki fəsil, nəticə və ədəbiyyat siyahısından ibarət olan 97 səhifəlik monoqrafiya elmi-pedaqoji baxımından düzgün işlənmişdir.

Monoqrafiyanın "Hüseyn Cavidin siyasi-hüquqi ideyalarının formalaşması" adlı I fəslində XIX əsrin sonu XX əsrin əvvəllərində siyasi-hüquqi ideologiyanın istiqamətlərinin xarekteristikası öyrənilmiş, Hüseyn Cavidin siyasi-hüquqi görüşlərinin formalaşmasına təsir göstərən mühüm faktorlar araşdırılmış və Hüseyn Cavidin siyasi-hüquqi görüşlərinin formalaşmasına təsir göstərən mütəfəkkirlərin fikirləri tədqiqə cəlb olunmuşdur.

Monoqrafiyanın II fəsli "Hüseyn Cavidin siyasi idealı, dövlət və dövlətin formaları haqqında ideyaların təkamülü" adlanır. Bu fəsildə isə Hüseyn Cavidin siyasi-hüquqi baxışlarının formalaşmasının ilkin dövrü tədqiq edilmiş, Hüseyn Cavidin siyasi-hüquqi baxışlarının formalaşmasının ideya mənbələri araşdırılmış Hüseyn Cavidin siyasi-hüquqi ideyalarının inkişaf istiqamətləri tədqiq olunmuş, Hüseyn Cavid və yaradıcılığına siyasi-hüquqi qiymətin verilməsində ümummilli lider Heydər Əliyevin rolu öyrənilmişdir.

Monoqrafiyanın “Nəticə” hissəsində tədqiqata yekun vurulmuş, məqsəd və vəzifələrin yerinə yetirilməsi haqqında ümumiləşdirici məlumatlar verilmiş və tədqiqatın əsas yekunları müddəalar şəklində sadalanmışdır.

“İstifadə edilmiş ədəbiyyat” hissəsində isə monoqrafiyanın yazılmasında istifadə olunmuş mənbələr göstərilmişdir. Müəllifin problemlə bağlı elmi ədəbiyyatla, və dövrü mətbuat kolleksiyaları ilə tanışlığı da xüsusi qeyd olunmalıdır.

Oğuzhan Uzar “Hüseyn Cavidin türkçülük, turançılıq və siyasi-hüquqi baxışları” adlı monoqrafiyasında bəhs etdiyi məsələni diqqətlə öyrənmiş və təhlil etmişdir. Müəllifin problemə baxışı, yanaşması, tədqiqi tam sistemli və yenidir.



**Təranə MƏMMƏD**

## QARANLIQDAN İŞIĞA
### Hekayə

O tək yaşayır. Tək, tənha. Ancaq, tənha olduğunu bilən yoxdur.
Bəlkə də bu tənhalıq deyil. Sadəcə adam tək yaşayır. Həmişə səliqəli geyinir. O qədər yüksək zövqlə geyinir ki, sanki bu geyimləri məhz bu uca boylu, gümüşü saçlı, yaşı 50-ni keçmiş
kişi üçün fərdi şəkildə tikirlər.
Hərdən qapısını döyən olur onun,ancaq, hamı qapıdan yola salınır. Heç kim onun necə yaşadığını bilmir.
Mən də bilmirdim.Bəlkə də heç zaman bilməzdim, əgər bir təsadüf olmasaydı.

Üç ildir ki, onunla bir binada bir mərtəbə yuxarıda yaşayıram. Hər gün onun qapısının qarşısından keçib yuxarı qalxıram.
Bir gün, həmişəki kimi ordan keçəndə, düz qapının yanında ayağım burxuldu. Özümü zorla saxladım, əlimdəki çanta çırpıldı kişinin qapısına. Mən əllərimlə qapını qucaqlayıb qaldım. Elə bu vaxt qonşu qapını açdı,təəccüblə mənə baxıb:
– Eşidirəm sizi,- dedi

Kişinin zəhmini gördükdə dilim dolaşdı:
– Mən… mən..burdan keçirdim.. Ayağım ilişdi…bağışlayın,-dedim.
– Buyurun, – deyib qapını bağladı.
Mən çantamı çiynimə atıb pilləkənləri qalxdım. Evimin qapısını açıb içəri girdim və
“İnsan nə qədər qəddar olmalıdır ki,qadına bir təsəlli də verməsin,”- deyə düşündüm.

Bu qəribə insanın xasiyyətinə bələd olduğumdan tez sakitləşib işlərimlə məşğul oldum.
Elə təzəcə işlərimi bitirmişdim ki,qapının zəngi basıldı.
Qapını açanda gözlərimə inanmadım. Bir neçə saat bundan əvvəl təsadüfən qapısına yapışdığım kişi idi gələn.
– Sizdən nigaran qaldım.Bəlkə bir kömək lazımdır. Mən həkiməm,- deyə o bir nəfəsə bu sözləri tələffüz etdi.
– Həkimsiniz?
– Hə.
-Yox. Çox sağ olun. Hər şey qaydasındadır.
– Təki olsun. Sağ olun.
O bu sözləri deyib pilləkənlərlə aşağı düşüb qapısını açdı sonra qapını çırpıb içəri girdi.
Mən olanları təhlil etməyə çalışdım, amma, bacarmadım.
Sonra düşündüm ki, gərək evə dəvət edəydim. Amma, yəqin ki, gəlməzdi.
Mənim 28 yaşım var. İşlədiyim şirkət evimizdən uzaqdır. Ona görə tezdən oyanıram. Maşınımı qarajdan çıxarmağa, geyinib evdən çıxmağa çox vaxt sərf edirəm.
Bu gün də tez oyanmışdım. Pəncərədən aşağı baxıb gördüm ki, həmin tək yaşayan qonşum maşınını qarajdan çıxarıb həyətdə siqaret çəkir. Sonra o

maşının qabaq qapısını açıb oradan iri bir oyuncaq, ağ ayı, götürüb arxa oturacağa qoydu. Sonra ora bir dəstə gül də qoyub qapını bağladı və sürüb getdi.Düzü onu belə tezdən ilk dəfə görürdüm həyətdə.
"Yəqin vacib bir adamı təbrik etməyə gedir,
bu yaşda eşqə düşüb kişi yəqin",- deyə düşündüm.
Əslində neçə yaşı olduğunu bilmirdim,amma, zahirən 50- 55 yaş vermək olardı ona.

Atam bu evi mənə alanda demişdi ki,qızım, Bakı rayon deyil, qonşular mehriban olmaya bilərlər. Sən hamıya hörmət et,heç kimdən heç nə umma. Anam tez-tez mənim yanımda qalır, ancaq, adətən özüm öz işlərimi yola verirəm. Artıq üç ildir ki, tək yaşayıram burda.
Rəfiqələrim demək olar ki, yoxdur. Gur yığıncaqları sevmirəm. İşimdən çox razıyam.
Bu gün işdən qayıdanda qonşumun qapısının yanından çox ehtiyatla keçdim ki, yıxılıb eləməyim.
Bir iki pilləkən qalxmışdım ki, arxadan "axşamınız xeyir" deyən səs eşitdim.
– Axşamınız xeyir,- deyə cavab verdim və arxaya çönüb qonşumu gördüm.
– Rica edirəm,mənimlə bir fincan qəhvə içməyə razılaşın.
Mən özümü necə itirdimsə nə cavab verəcəyimi bilməməyim bir yana, astaca iki pilləkən aşağı düşdüyümü də hiss etmədim.
O qapısını açıb məni içəri dəvət etdi.
Çantamı və gödəkcəmi asılqana asıb məni içəri dəvət etdi:
– Buyurun. Xoş gəlmisiniz.
– Çox sağ olun,- deyə nəhayət mən səsimi çıxartdım.
Mən istər istəməz gözlərimi qamaşdıran səliqəyə,təmizliyə nəzər saldım. Lakin,bütün bunlarla yanaşı evdə bir qəribə sükut, qaranlıq və havasızlıq

var idi.
Bura sanki insan ayağı dəyməyən bir məkan idi. Hər şey o qədər düşünülmüş dərəcədə yerində idi ki, sanki yaşayış evi yox film üçün qurulmuş dekorasiya idi.Divarlarda isə saysız-hesabsız şəkillər. Gözəl cavan qadının və kiçik bir qızın şəkilləri asılmışdı.
Şəkillərin çoxu böyüdülmüş,bəziləri kiçik çərçivədə,bəziləri isə hər yerə səpələnmişdi.

Qonşum mənim təəccübümü hiss edib:
– Əyləşin. Adınızı da bilmirəm. Mənim adım Elmandır.
– Natəvan.
– Buyurun, Natəvan xanım. Əyləşin. Anlayıram sizi. Düşünürsünüz ki, bu şəkillər nədir və niyə bu qədərdir.
– Yoox…- deyə mən nəsə danışmaq istədim.
– Bu mənim ailəmdir. Mən tək deyiləm. Ailəm var. Bu mənim həyatda ən çox sevdiyim qadındır. Bu isə mənim həyatım, mənim canım, mənim hər şeyimdir. Bu mənim qızımdır
– Allah saxlasın,- dedim
O gülümsündü və:
– Çox sağ olun!- dedi.
Sonra iki fincan qəhvə gətirdi və:
-Sağ olun ki,dəvətimi qəbul etdiniz.Bu gün qızımın ad günü idi. İki yaşı tamam olur. Getdim təbrik etdim səhər tezdən . Bütün günü onlarla oldum. Yaxşıdırlar,şükür.
Mən “niyə burada deyillər?” Soruşmaq istədim,lakin artıq sual vermədim.
– Siz işləyirsiniz eləmi?
– Bəli.
– Neçə yaşınız var?

– 28 .
– Mənim 35
– Nəə????- deyə mən təəcübümü gizlədə bilmədim.
– Hə, 35 yaşım var. Uşaqlıqdan həkim olmaq istəyirdim, oldum. Amma, sonra atdım həkimliyi. İstəmirəm. Klinikam var,amma özüm müalicə etmirəm. Edə bilmirəm
– Necə yəni?
– Bu haqda danışmaq istəmirəm.
Biz qəhvəni içib bir qədər danışdıq və mən evə getmək üçün ayağa qalxdım.
Elman məni ötürüb qayıtdı.

Mən bu insanı bir qədər yaxından tanıdım. Çox alicənab, hörmətcil, mədəni bir insan olduğunu bildim.
Lakin ailəsindən ayrı yaşamağı, yaşından çox qoca görünməyi içimdə min sual yaradırdı.
Gecə çox gec yatdım. Düşündüm və bu insanın nədən məni evinə dəvət etdiyini anlamaq istədim.
Ertəsi gün işə getmək üçün qaraja endim. Elman maşını mənim qarşımda saxlayıb:
– Çıxartmayın bu gün maşını. Mən aparım sizi.
– Əziyyət çəkməyin.
– Xahiş edirəm, Natəvan xanım.
Mən onun maşınına oturdum. Yol boyu yalnız qızından və arvadından danışdı. Qızının ilk gülüşü, onları doğum evindən gətirdiyi gün,- hamısını danışdı mənə.
İşdə bütün günü düşündüm. Niyə mənə ailəsini bu qər tanıdır? Məni ailəsinə niyə bu qədər yaxınlaşdırır bu adam?
Elman heç də mənim təsəvvür etdiyim qədər qaraqabaq biri deyildi. O

musiqini,gülləri, heyvanları çox sevirdi. O çox savadlı və maraqlı bir insan idi.
Biz hərdən görüşməyə başladıq.Yaxın dost olduq. O mənə, mən ona həyatımızda olanları danışırdıq.
Anamla da tanış oldu. Anam da ona çox hörmət edirdi. Atam rayondan ona meyvə göndərirdi. Yəni biz həm qonşu həm də dost olduq.

Bir gün o məni ailəsi ilə tanış etmək istədiyini bildirdi. Mən həm sevindim həm də məni arvadına rəfiqəsi kimi təqdim etdikdə o xanımın reaksiyasından bir qədər qorxdum. Axı, kimin xoşuna gələr ki,əri başqa bir qadınla dostluq etsin?
Nə isə, razılaşdım.
Şənbə günü idi. İkimiz də işləmirdik. Mən geyinib kecinib onun zəngini gözləyirdim
Saat 11 də zəng edib maşında məni gözlədiyini dedi.
Gəlib maşının arxa qapısını açmaq istədim,lakin Elman mənə qabaq qapını açıb oturmağımı xahiş etdi. Mən oturdum və güzgüdə arxa oturacağın üstündə bir qucaq yasəmənin və iri bir gəlinciyin olduğunu görüb bir qədər tutuldum və:
– Bəlkə mən də bir şey alardım? Əli boş getməzdim,- dedim.
– Yox. Lazım deyil. Almışam hər şey, – dedi və maşını işə saldı.
O susurdu. Nədənsə mənə elə gəldi ki,yəqin məni götürməyinə peşimandır.
Şəhərin mərkəzindən keçib qəbristanlığa yaxınlaşırdıq. Mən heç nə anlamırdım. Düşündüm ku,yəqin evləri hardasa buralardadır.
Elman maşını saxlayıb mənim qapımı açdı. Sonra yasəmənləri, gəlinciyi götürdü və :
-Gəl, – dedi.
Ayaqlarım sözümə baxmırdı. Mən hər şeyi anladım. Bu insanın bu qədər

dərd çəkdiyini,nədən tez qocaldığını- hər şeyi anladım və heç nə demədən onun arxasınca getdim.
Biz güllərin içində itib batmiş ana və balanın məzarına yaxınlaşdıq.
Mən göz yaşlarımı saxlaya bilmədim. Elman onlarla elə danışırdı ki,sanki onlar sağ idi və onun qarşısında idilər. Mən yaxınlaşıb onun əllərindən tutdum. O susur və diqqətlə məzara baxırdı. Sonra birdən, başını mənim çiynimə qoyub o qədər ürəkdən hönkürdü ki, ürəyim parçalandı.
– Ağla, Elman, ağla ki, ürəyin sakitləşsin! -dedim.
Biz bir-birimizə sığınıb ağlayırdıq.
– Natəvan. Çox sağ ol. Nə yaxşı ki, sən varsan. Mən çox bədbəxt insanam. Bir ildir ki, bunları bura gətirmişəm. Özüm öz əllərimlə. İkisini də. Xilas edə bilmədim. Onlar qan içindəydilər. Onlar artıq keçinmişdilər. İkisi də.
– Sakit ol!Elman. Bu həyatdır. Sən düz etmirsən. Burax onların ruhlarını, sakit yatsınlar. Allah o dünyalarını versin,-deyob onu sakitləşdirmək istədim.
Biz məzarların arasıyla maşına yaxınlaşdıq. Sükan arxasına mən keçdim. Elman yanımda oturub bütün yolu danışdı.
Arvadı ilə qızını sürücünün maşını ilə bağa yola salıb ertəsi gün özü getməliydi onların yanına. Lakin bir neçə saatdan sonra onun xəstəxanasına gətirilən ana, balanı və sürücünü heç kim xilas edə bilmədi.

Mən maşını sahilə sürdüm. Dənizin sahılındə insan sakitləşir. Sanki uzaqlara baş vuran dalğalar insanın dərd sərini özüylə aparır və dənizin dibində gızlədir.
Elman xeyli sakitləşdi. Mən də bir balaca rahat oldum. Gecəyə kimi oturduq qumun üstündə və dənizin həzin nəğməsini dinlədik.
– Gedək!- deyə Elman ayağa qalxdı.

Biz evə gəldik. Elmanı evimə dəvət etdim. Razılaşdı.
– Bu gecə sən burda qal.
Evinin açarını isə mənə ver. Mən qalacam orda,-dedim.
Elman açarını mənə verib :
– Natəvan. Mən ora gedə bilmirəm. Tənhalıqdan qorxuram,-dedi.
-Bilirəm.Yat burda rahat.
Elman mənim divanımda yuxuya getdi.
Mən onun açarını görürüb aşağı endim.
Bütün gecəni Elmanın evində dəyişiklik etdim.
Pəncərələri açıb otaqların havasını dəyişdim. Bütün şəkilləri iri bir çantaya yığıb gizlətdim. Yalnız divardan asılan bir şəkili saxladım. Otaqları təmizlədim və Elmanın divanında yatdım.
Ertəsi gün tezdən oyanıb həyətdəki gül mağazasına düşdüm. Bir dəstə gül alıb Elmanın stolunun üstündəki boş güldana qoydum . Qapını bağlayıb evimə qalxdım. Qapını açarla açdım. Elman divanda yatmışdı. Səhər yeməyi hazırlayıb onu oyatdım.
– Mən hardayam? – deyə Elman sual verdi
– Dur,Elman, dur çörək ye. Sonra evinə gedərsən.
Biz səhər yeməyini bir yerdə yedik. Elman heç nə danışmırdı.
Sonra o evinə getdi.

Mən çox nigaran idim. Evini yeni tərtibatda bəyənməyəcəyindən, hətta əsəbləşəcəyindən çox qorxurdum. Lakin bir neçə saatdan sonra qapımın zəngi basılanda və qarşımda əlində iri bir gül dəstəsi Elmanı görəndə zevincimdən özümü onun qoynuna atıb başımı çiyninə qoyub:
– Çox sağ ol, Elman!- dedim.
O məni bərk-bərk qucaqlayıb:
– Sən sağ ol, mənim xilaskar mələyim!- dedi.
Atamla anam toyumuzu xüsusi təntənə ilə qeyd etmək istədilər. Biz

nigahımızı rəsmiləşdirmək üçün ən yaxın adamlarımızı yığıb kiçik bir yığıncaq etdik. Sonra mən Elmanın evinə getdim.
Biz tez-tez Elmanın keçmiş ailəsini ziyarətə gedirik. Balaca oğlumuz bilir ki, burda onun bacısı yatır. Gülərüz , həmişə cavan xala isə Elmanın ürəyindən və yaddaşından heç zaman silinməyən bir qadın olaraq qalacaq. Mən bunu bilirəm və onun yerini tutmağa heç cəhd göstərmirəm. Qoy belə olsun. Yeganə onu bilirəm ki,Elmanın qaranlıq həyatında bir işıq yandıra bilmişəm.



**Mehmet Faruk HABİBOĞLU**

**DAĞLAR**

Dertliye memleket, aşığa gurbet
Başı hep dumanlı, vakârlı dağlar
Ferhat'ın bir ömür çektiği hasret
Sevdaya son menzil efkârlı dağlar
* * *
Mecnun'un uğrunda göçtüğü Leyla
Kâh Şirin kâh Arzu yahut Züleyha
Maşuğun kalbinde mukaddes Mevla
Her mevsim zirvesi rüzgârlı dağlar
* * *
Bayardüzü, Ağrı yalçın ve yüce
Şairin yüreği her zaman gece
Dağlar ki seslenir kendi dilince
Susmayan şiirdir esrârlı dağlar.





**Leyla Koçak ORUÇ**

## COŞMA

Sırdaşın mı cahil, dilde dem bozuk?
Doğru yoldan çıkıp, çağlayıp coşma.
Hizmet edersin hep, menzilsiz tozup,
Laf fitili yakıp, dağlayıp coşma.
* * *
Semah dönen kişi, paktır ak yüzü,
Gülbenk okur dili, bism-i şah közü,
Gerçek er, bacılar, hürmette sözü,
Şerri dilde çakıp, yağlayıp coşma.
* * *
Cem mekânı Allâh, güvercin yurdu,
Üçler, beşler, saf saf, yiğitler kurdu,
O halkada elest, şehitler nurdu,
Kem diline bakıp, çağlayıp coşma.
* * *
Meydana çıktıysam, namus derdiğim,
Ar şerbeti dolum, kültür verdiğim,
Çarkta dönerken hü, özüm serdiğim,

Sofu gözle bakıp, bağlayıp coşma.
* * *
Aykız türkmen kızı, öter gölünde,
Turna semah eder, gelir çölünde,
Avaz avaz sazda, yanar, gülümde
Zalim boşa akıp , ağlayıp coşma.

**MEKANSIZ KALDIM**

En güzel dostumsun, doyamam canan,
Büyü mü yaptın ki, mekansız kaldım.
Konamam gölüne, sarhoşum yanan,
Aşka ne kattın ki, mekansız kaldım.
* * *
Çırası meşeden, közüm ah sönmez,
Yanarken çağırır, sesi hiç dinmez,
Ağıt yakar matem, acılar sinmez,
Busen mi tattım ki, mekansız kaldım.
* * *
Ta derinden çizdin, incinir yaşım,
Gururlu kuşkusuz, eğilmez başım,
Dolaşıp dururum göklerde kuşum,
Sihir mi yaptın ki, mekansız kaldım.
* * *
Derler neden sitem, sadıktır yarin,
Elinde bade içer, lisanı narin,
İdrak eder her dem, zor günde carın,
Kaşın mı çattı ki, mekansız kaldın?
* * *
Aykızın yüreği, büyülü olsun,

Ebedi zenginlik, erdemle dolsun,
Tensel hazlar tülden, ipekten yolsun,
Bağım mı sattın ki, mekansız kaldım.

**DAMLARKEN**
Kimi zaman yakar hayat, kavurur,
Özden çıkıp dışa, kendim damlarken.
Sebebi var elbet, zalim savurur,
Çıngı gibi başa, kendim damlarken.
* * *
İnatçı bir sevda, tedbirsiz çağlar,
Kasım kadar solgun, yakarır bağlar.
Irak akar korku, gizliden ağlar,
Özsu denen kaba, kendim damlarken.
* * *
Zerre zerre süzer, kaynaktan tozar,
Yiğit dolu ile, gümansız yüzer.
Mavi bir hazine, Gökkubbe küser,
Evren denen vara, kendim damlarken.
* * *
Umut gece titrer, solgun ışıkken,
Hasret düşer duygu, ruhum aşıkken.
Can yakar tutkular, keser ayıkken,
Kurak kalan cana, kendim damlarken.
* * *
Aykız'ım biçare, vakit yol alır,
Kar kuyusu ne ki? sıvazlar asır.
Rivayet olur tül, büyüler ahir,
Dil zar olup tara, kendim damlarken.

**DERMAN AZİZİM**

Hasret tende azar, harabat gönlüm,
Minnet etmem hara, derman azizim.
Lokman olsa koşar, çırada söndüm,
Dara çeker dara, derman azizim.
* * *
Derin vech içinde, semah ediyor,
Sabır dileği sır, ruhu eziyor,
Yıldız gibi çakıp, bağrım eşiyor,
Çığlık atar nara, derman azizim.
* * *
Diz kırsın sancılar, alayım nefes,
Terk etsin canım, boş kalsın kafes,
Aşk makamım yanar, kalmadı heves,
Yare tüter yare, derman azizim.
* * *
Alın yazım bil ki, gazelim bizar,
Gümüş ay çatladı, yıkıldı hisar,
Külli nefssin vara, gönlüme sızan,
Cana kıyar cana, derman azizim.
* * *
Aykız der yakarış sana dilimden,
İnkar etme sakın, derya derinden,
Çare yok dönüyor, vuslat yüzünden,
Tülüm yanar sana, derman azizim.
***Küllü nefs: Evrenin ruhu…***



**Lalə İSMAYIL**

## DAŞ İMİŞ

Yar yolunda çəkdim zulmün zillətin,
Şələ tutub, aldım eldən minnətin,
Gözlərimə yığdım hicran, həsrətin,
Vüsalına ha can atdım, boş imiş.
* * *
Dönüb baxdı geyindiyim alıma
Bəzək dedi, sinəm üstə xalıma,
Etibarsız, o insafsız zalıma,
Göz yaşlarım gülüşümdən xoş imiş.
* * *
Son sətirlər saralıbdır varaqda,
İtirdiyim illər qalıb soraqda,
Mənə gələn yolu tutub ayaqda,
Yoxsa yada gedən yolu baş imiş?!
* * *
Sevgimizin həsrət qoxan ətirin,
Tozun alıb, oxşayardın xətirin,

İtirmisən bəlkə də son sətirin,
Ürək quru, eşqin sözdə yaş imiş?!
* * *
Sinə gərib firtınaya, küləyə,
Haqqı vardır, vardan Haqqa gileyə,
Sən oxşatdın üstü şehli çiçəyə,
Əzəl gündən Lalə elə daş imiş.

**YALVARIM**

Kədər yağıb göz-qaşına,
Üz çevirib sirdaşına,
Yenə çıxıb dağ başına
Enərmi düzə, yalvarım?!
* * *
Nazı kəsir nəfəsimi,
Gözdə qoyur həvəsimi,
Bir dinləyə haqq səsimi,
Baxmayır sözə, yalvarım.
* * *
Qoymayır inadın yerə,
Salıb məni dərdə-sərə.
İstəyirəm bircə kərə
Gələk göz-gözə, yalvarım.
* * *
Gecəm, günüm olub haram,
Sızıldayır könül yaram.
Zalım balasında param
Düşmüşəm dizə, yalvarım.
* * *
Öyrənib fələk felini,
Yamsılayır dağ selini.

Talan edib mən dəlini
Salmasın közə, yalvarım.
* * *
Yarım qalmasın arzumuz,
Barışsın bəxt ulduzumuz,
Qoşa yazılsın yazımlz
Gül açsın təzə, yalvarım.
* * *
Sədəfli saz dilə gəlsin,
Çal, Lalənin bağrın dəlsin,
Yarım gülə-gülə desin,
"Dur gedək bizə ", yalvarım.



**Zaur USTAC**

## MƏŞƏQQƏT

*(…hər səhər…)*
Yenə çalardan qabaq
Açıram gözlərimi…
Aman Allah, hardayam?
– Qucuram dizlərimi…
* * *
Elə həmən yerdəyəm;
– "Göyün yeddi qatı"dı,
Hələlik "Koroğlu"yam,
Atım, onun atıdı…
* * *
Özüm də "Çənlibel"də
Duman, çənə düşmüşəm,
Səhərədək yuxuda
Bişirmişəm, bişmişəm…
* * *
Elə həmən qatdayam;
Öz evim, öz otağım,

Simurq kimi dözümlü,
Qu qanadlı yatağım…
* * *
Alt qonşunun ah-vayı,
Üstdəkinin cır-cırı…
Sərçələrin cik-ciki,
Xoruzların dır-dırı…
* * *
Bir yandan qaratoyuq,
Bir yandan da pişiklər…
Oxur sevgi nəğməsi,
– Utanmazlar, düşüklər…
* * *
“Əldəndışqarı” sözü
Nəsə düşür yadıma…
Sonra nöqsanlarımı
Yükləyirəm adıma.
* * *
Təxəllüsə sığınıb,
Birtəhər oyanıram…
Hələ alaqaranlıq,
– Bir xeyli dayanıram…
* * *
Qəfil saat zəng çalır,
Sonra oxunur azan…
Həyətdə süd satanlar
Dınqıldadırlar qazan…
* * *
Qopur dizimin bağı;

– Xəyalda iydə qoxur…
Hamı əvvəlki kimi,
Sevgi nəğməsin oxur…
* * *
Ah-vay, cır-cır dayanır,
Susur qaratoyuqlar…
Xoruzun dır-dırına
Cavab vermir toyuqlar…
* * *
Kəsilir bütün səslər,
Xəyalda iydə qoxur…
Pişiklərsə, aramsız,
Sevgi nəğməsin oxur…

## YARPAQ VƏ TORPAQ

Can verəni candan alı qoyarıq,
Unudur yarpağa möhtacdır yarpaq…
Torpağa su deyil, zəhər veririk,
Marağa məəttəl qalıbdır torpaq…
* * *
Xəzələ aman yox torpağa çata,
Qurumuş canıyla cana can qata,
Əbədi qanunla rahatca yata,
Süprülüb çöplüyə atılır yarpaq…
* * *
Torpağa ting deyil, sütun əkirlər,
Arx, kanal yerinə hasar çəkirlər,
Dəmirdən, betondan kəfən biçirlər,
Gözü baxa-baxa gömülür torpaq…

* * *
Bizə can verənin canın almayaq,
Bu iki aşiqin yolun burmayaq,
Yarpağı torpağa həsrət qoymayaq,
Yarpaq elə torpaq, torpaqdır yarpaq…
* * *
Ay Ustac, haqq deyən Nəsımı öldü,
Haqq bir damladır, batilsə göldü,
Qardaşlar tək gəlmiş Adəmi böldü,
Bizlər unutsaq da, unutmur torpaq…

**HERMAFRODİT**
(…”payıza”…)
Məchulsa, cinsi bir kəsin,
Bəlkə, hermafroditdi…
Adı yoxsa, bir nakəsin,
Bəlkə, hermafroditdi…
* * *
Qışdı ya payız bilinmir,
Qovun ya qarpız bilinmir,
Oğlandı ya qız bilinmir,
Bəlkə, hermafroditdi…
* * *
Adamdı, oyux bilinmir,
Bordaxdı, burux bilinmir,
Atdı ya ulax bilinmir,
Bəlkə, hermafroditdi…
* * *

Şalğamdı, pazı bilinmir,
Çoxu çox, azı bilinmir,
Ördəyi, qazı bilinmir,
Bəlkə, hermafroditdi…
* * *
Nə sudadı, nə quruda,
Nə lildədi, nə duruda,
Çatmayıb, qalıb boruda,
Bəlkə, hermafroditdi…
* * *
Bilinmir hara malıdı,
Ayağında at nalıdı,
Qabağında it yalıdı,
Bəlkə, hermafroditdi…
* * *
Halından halıdı Ustac;
Dərdi böyük, dərdə möhtac,
Nişanı var, ləçəkli tac,
Bəlkə, hermafroditdi…

**"TƏRƏFSİZ ƏDƏBİYYAT TARİXDİR!"**

Jurnal bu layihə çərçivəsində ödənişsiz əsaslarla nəşr olunur.

**Redaksiyanın ünvanı:** Az-1012, Bakı, M.Xiyabani-14a
Dövlət qeydiyyatı: № 2319, 16.08.2007-ci il.
Əvvəlki illərdə 15 xüsusi buraxılışı olub.
Dövri olaraq 2021-ci ildən çıxır.

E-mail: zauryazar@mail.ru
yazarlaraz@yandex.ru
Rəsmi saytı: **WWW.YAZARLAR.AZ**
Telefon: (012) 430-14-81 (+994) 70-390-39-93

"Yazarlar"ın redaksiyasında yığılıb səhifələnir,
"El kitab çapı" mərkəzində çap olunur.
Çapa imzalanıb: 05.04.2021
Sifariş: №: 27
Tiraj:100.
Elektron variant var.
Qiyməti: PULSUZ.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**QEYDLƏR**


WWW.YAZARLAR.AZ
Z.Ayətxan
X.Taleh
H.Faruk
O.Leyla
M.Təranə
U.Zaur
YAZARLAR
Aprel 2021
N: 04 (04)